# AŞPA qərəzli mövqe tutub

Son üç ildə baş verən mühüm hadisələr - Azərbaycanın öz ərazilərini Ermənistanın işğalından azad etməsi və suverenliyini tam bərpa etməsi, yalnız ölkəmizin, xalqımızın uğuru deyil. Otuz il davam edən münaqişənin Azərbaycan dövlətinin düzgün siyasəti nəticəsində başa çatması bütövlükdə Cənubi Qafqaz üçün olduqca əhəmiyyətlidir. Çünki uzunmüddətli münaqişə ocağının söndürülməsi bütövlükdə regionda sülhün, sabitliyin bərqərar olmasına, iqtisadi inkişafa geniş şərait yaradır.

→ 7

# AŞPA qərəzli mövqe tutub

**Ötən əsrin sonlarında müstəqilliyinə qovuşan Azərbaycan çox ağır problemlərlə üzləşdi. İqtisadi böhranın məngənəsinə düşən respublikamız xarici havadarlarından hər cür yardım alan Ermənistan tərəfindən müharibəyə cəlb edildi. Qəsbkar, təcavüzkar ermənilər torpaqlarımızın 20 faizini zəbt etdilər.**




İşğal müddəti uzandıqca, Ermənistan silahlı qüvvələri əzəli torpaqlarımız olan Qarabağda və Şərqi Zəngəzurda qurduqları istehkamlardan, ildən-ilə möhkəmləndirdikləri mövqelərindən iriçaplı pulemyotlarla atəşlər yağdırdıqca Azərbaycanın əsgər və zabitləri, dinc sakinləri şəhid və ya əlil oldular. Buna cavab olaraq ordumuz düşməni məhv etdi, tarixi torpaqlarımızı azadlığına qovuşdurdu.

Artıq həmin torpaqlarda ölüm saçan atəş səsləri deyil, canlanmaqda olan həyatın səsi eşidilir. Qarabağda və Şərqi Zəngəzurda Azərbaycan dövləti geniş və sürətli tikinti-quruculuq işləri reallaşdırır. İşğalçıların xarabalığa çevirdikləri yurdlarımız təzədən qurulur, məcburi köçkünlər tədricən yenidən inşa olunmuş evlərinə qayıdırlar.

Son üç ildə baş verən mühüm hadisələr - Azərbaycanın öz ərazilərini Ermənistanın işğalından azad etməsi və suverenliyini tam bərpa etməsi, yalnız ölkəmizin, xalqımızın uğuru deyil. Otuz il davam edən münaqişənin Azərbaycan dövlətinin düzgün siyasəti nəticəsində başa çatması bütövlükdə Cənubi Qafqaz üçün olduqca əhəmiyyətlidir. Çünki uzunmüddətli münaqişə ocağının söndürülməsi bütövlükdə regionda sülhün, sabitliyin bərqərar olmasına, iqtisadi inkişafa geniş şərait yaradır.

Azərbaycan dövlətinin, xalqının arzusu da budur. Biz yalnız öz respublikamızın deyil, bütün regionumuzun, eləcə də dünyamızın müharibədən, münaqişələrdən uzaq olmasını istəyirik. Azərbaycan hər zaman buna səy göstərib. Bu gün isə sülh yolu ilə beynəlxalq arenada hər cəhətdən güclənmiş, nüfuzlu dövlət olaraq irəliləyir.

Azərbaycanın məqsədi aydın, amalı bəllidir. Bunu görməyənlərin kor olduqlarını söyləmək sadəlövhlük olardı. Təəssüf ki, Avropa Şurası Parlament Assambleyası (AŞPA) kimi beynəlxalq təşkilatların, Fransa kimi ölkələrin sülhün, sabitliyin, təhlükəsizliyin bərqərar olunması istiqamətində fəaliyyət göstərən Azərbaycanı deyil, özgə dövlətin torpaqlarını qəsb, vətəndaşlarına qəsd etmiş işğalçı ölkəyə haqq qazandırmalarının səbəbi xəbərsizlik, məlumatsızlıq yox, fitnə-fəsaddır. Görünən odur ki, Cənubi Qafqazda münaqişənin bitməsi və sabitliyin yaranması onları əməlli-başlı narahat edib. Belə olmasaydı, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması real göründüyü bir vaxtda Fransanın və Almaniyanın bəzi siyasətçiləri fitnəkarlığa əl atmaz və öz qaralama kampaniyalarında AŞPA kimi beynəlxalq təşkilatdan siyasi alət kimi istifadə etməzdilər.

Avropa Şurası Parlament Assambleyası qış yarımsessiyasının açılış günündə, yanvarın 22-də ölkəmizin nümayəndə heyətinin etimadnamələrinin təsdiq edilməməsini əsaslandıra da bilmədi. Yalnız yalanlara əl atmaqla, bəhanələr gətirməklə kifayətlənməli oldu. Bununla qurumun rəhbərləri ikili siyasət yürütdüklərini, Azərbaycana qarşı qərəzli olduqlarını nəinki ört-basdır edə bilmədilər, əksinə, gerçək niyyətlərini göstərərək özlərini ifşa etdilər. AŞPA-nın Azərbaycana qarşı tutduğu mövqe qərəzkarlıqdır. İşğalçı ölkənin silahlı qüvvələrini, seperatçıları torpaqlarından qovan, hər bir vətəndaşının təhlükəsizliyini, rifahını təmin etməyə səy göstərən ölkəmizin AŞPA-da səsinin dondurulmasına başqa ad vermək olmaz.

Bu beynəlxalq təşkilat otuz il ərzində üzvü olan bir ölkənin - Ermənistanın digərinin - Azərbaycanın ərazisini işğal altında saxlaması faktına göz yumdu. Ən azı, işğalçı dövlətin səs hüququnun məhdudlaşdırılmasına belə cəhd etmədi.

AŞPA uzun illər Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görmədi, yalnız hüquqi çəkisi olmayan azsaylı bəyanatlarla kifayətləndi. Azərbaycan 2001-ci ildə bu təşkilata üzv olandan bəri ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə etdilər.

Tarixə çevrilmiş faktları görmək istəməyən AŞPA yalanlara, uydurmalara əsaslandı, yüz mindən çox erməni əhalisinin bölgəni tərk etməsindən narazılığını ifadə etdi. Halbuki Azərbaycanın Qarabağın erməni əhalisinə humanist münasibəti hər kəsə məlumdur. Dəfələrlə onlara getməmələri, ölkəmizin vətəndaşlığını qəbul etmələri üçün rəsmi müraciətlər olunub. AŞPA rəhbərliyi də, bu beynəlxalq təşkilatı oyuncağa çevirən Fransa və Almaniyanın bəzi siyasətçiləri də bütün dünyaya bəlli olan bu həqiqəti çox yaxşı bilirlər.

Azərbaycan bu gün öz ərazilərində suverenliyini tam bərpa etmiş müstəqil bir dövlətdir. Bu böyük Zəfərinə müxtəlif platformalarda, həmçinin AŞPA səviyyəsində aparılan müzakirələrdən, qəbul edilən qətnamələrin reallaşdırılmamasından sonra təkbaşına nail olub. Bir çox ermənipərəst ölkəni, beynəlxalq təşkilatı, eləcə də Avropa Şurasını və Avropa Şurası Parlament Assambleyasını narazı salan da budur. Ancaq bütün yalanlarına, böhtanlarına, qərəzli münasibətlərinə rəğmən, müstəqil, suveren Azərbaycan tərəqqi yolundadır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 6 fevral, № 25.- S.1, 7.